ROBERT FİLİP

# MUSİQİNİN QISA TARİXİ

İngiliscədən tərcümə:
Nəzakət Ağayeva

QANUN NƏŞRİYYATI

ROBERT PHILIP

# A LITTLE HISTORY OF MUSIC

Robert Filipin "Musiqinin qısa tarixi" əsəri musiqi sənətinin qədim dövrlərdən başlayaraq XX əsrə qədər keçdiyi inkişaf yoluna qısa, lakin məzmunlu baxış təqdim edir. Robert Filip musiqi tarixini təkcə xronoloji ardıcıllıqla deyil, həm də üslubi, mədəni və sosial kontekstlərdə təhlil edir. Qədim yunan musiqisindən başlayaraq barokko, klassik və romantik dövrlər, oradan da müasir dövr musiqisinə qədər olan mərhələlər sadə dildə izah olunur. Bəs musiqi minilliklər boyunca necə dəyişib? Bu, həqiqətən də, qlobal hekayədir. Robert Filip Avropa, Cənubi Amerika, Asiya, Afrika və digər bölgələrə nəzər salaraq göstərir ki, musiqiçiləri bir araya gətirən amillər ticarət və miqrasiya olub. Əsər həm musiqi sənəti ilə maraqlanan geniş oxucu auditoriyası, həm də musiqi təhsili alan tələbələr üçün dəyərli vəsaitdir. Filipin üslubu sadə, lakin düşündürücüdür. O, mürəkkəb anlayışları da oxucunun rahatca dərk edə biləcəyi şəkildə təqdim edir. Bu kitab musiqinin yalnız notlardan ibarət olmadığını, onun epoxa, mədəniyyət və insan duyğularının ifadə forması olduğunu xatırladır.

# MÜNDƏRİCAT


**Fəsil 1.** Musiqi nədir və nə üçündür? ....................................... 7
**Fəsil 2.** Qədim rəqsin kölgələri ....................................... 16
**Fəsil 3.** Şair mədh edir ....................................... 24
**Fəsil 4.** Lyutnyada improvizasiya ....................................... 30
**Fəsil 5.** Musiqi meditasiya kimi ....................................... 38
**Fəsil 6.** Qonqun əbədi səsi ....................................... 45
**Fəsil 7.** Ritm və cəmiyyət ....................................... 55
**Fəsil 8.** Əcdadların ruhları ....................................... 62
**Fəsil 9.** Rəqs və harmoniya ....................................... 70
**Fəsil 10.** Kilsədə dini nəğmələr, küçələrdə mahnı oxumaq .......... 79
**Fəsil 11.** Əsaslandır, yaz ....................................... 88
**Fəsil 12.** Köhnə təhriflər, yeni düşüncə ....................................... 97
**Fəsil 13.** Bəstəkarlar qanadlarını açırlar ....................................... 105
**Fəsil14.** Lyutnyalar və klaviaturalar ....................................... 113
**Fəsil 15.** Kilsənin islahatı, insanların maarifləndirilməsi .............. 120
**Fəsil 16.** Fəth və yenidən fəth ....................................... 129
**Fəsil 17.** Sözləri ifa edin, musiqi dilində danışın ....................... 137
**Fəsil 18.** Dramatik musiqinin cəlbediciliyi ....................................... 145
**Fəsil 19.** Musiqi alətləri və orkestrin yüksəlişi ............................ 154

**Fəsil 20.** Ulduz müğənnilər və opera işi ........................................163
**Fəsil 21.** Bəstəkarın saray və kilsə həyatı ........................................171
**Fəsil 22.** Aydınlanma və inqilab ........................................178
**Fəsil 23.** Afrikalı kölələr və dəbdəbəli Avropa ........................................187
**Fəsil 24.** Səhnədə və beyində fırtınalar ........................................194
**Fəsil 25.** "Klassikləşmə" ........................................202
**Fəsil 26.** Sənətkar rahib və xəyalpərəst kimi ........................................211
**Fəsil 27.** Dahi və parlaq, əzəmətli və ağıllı ........................................218
**Fəsil 28.** Vətəndə və xaricdə ifa edən qadınlar ........................................227
**Fəsil 29.** Tamaşaçı axtarışı ........................................235
**Fəsil 30.** Öz vətənim üçün həsrət çəkmək ........................................243
**Fəsil 31.** Qərbləşmə və modernləşmə ........................................252
**Fəsil 32.** Qaranlığa doğru ........................................262
**Fəsil 33.** İşığa çatmaq ........................................270
**Fəsil 34.** Blüz və reqtaymdan caza doğru ........................................278
**Fəsil 35.** Biq Benddən Bi-Bopa doğru ........................................287
**Fəsil 36.** Repressiyaya reaksiya ........................................296
**Fəsil 37.** Sadəcə mücövhərlərinizi cingildədin ........................................306
**Fəsil 38.** Etirazdan popa ........................................314
**Fəsil 39.** "Qlobal kənd"də musiqi ........................................323
**Fəsil 40.** Dünən, bu gün və sabah ........................................332

## FƏSİL 1

# Musiqi nədir və nə üçündür?

Musiqi nədir? Kifayət qədər sadə sualdır deyə bilərsiniz, amma o, göründüyü qədər sadə deyil. Deyə bilərsiniz ki, musiqi kiminsə oxuduğu və ya hər hansı musiqi alətində ifa etdiyi xoş səsdir. Ancaq bu "xoş səs" nədir və biz oxuyanda və ya oynayanda nə edirik? Deyə bilərsiniz ki, insanlar melodiyalar, akkordlar, harmoniya, ritm, zərb yaradırlar. Bunlar, şübhəsiz ki, musiqinin tərkib hissələridir. Amma onlar musiqinin nə olduğunu əsaslı şəkildə izah etmir.

Biz musiqi elementləri ilə ilk dəfə ana bətnində rastlaşırıq. Hələ doğulmamış körpə olanda, təxminən on beş həftəliyimizdə eşitməyə başlayırıq. Həyatımıza hakim olan səs anamızın ürəyinin döyüntüsüdür. Ürək döyüntüsü həmişə oradadır, anamızın nəfəs alması ilə ortaqdır. Beləliklə, biz hələ doğulmamışdan öncə davamlı olaraq, hər biri anamızın fəaliyyət səviyyəsindən asılı olaraq sürətlənən və yavaşlayan bu iki ritmdən xəbərdarıq. Buna görə də insanların çoxunun eyni növ ritm hissi ilə doğulması təəccüblü deyildir.

Bir yaşımıza çatmamışdan öncə biz bir növ əsas "mənaya", bəlkə də, "musiqi"yə reaksiya veririk. "Körpə vağ-vuğu"nun necə səsləndiyini bilirsiniz. Bu, səsin həddən artıq yuxarı qalxması və aşağı düşməsi və bununla ifadə edilən əhvali-ruhiyyəni vurğulamaqdan ibarətdir: "Burada yaxşı bir qız var!", "Ah *aman Allahım*!", "Ah! Mən *sakitəm*!" Bu mübaliğəli nitq, demək olar ki, mahnı kimi dünyada müxtəlif mədəniyyətlərdə istifadə olunur. Körpə sözləri anlamadan belə, gülümsəyərək, gülərək, ciddiləşərək, sözləri və tonu müəyyən şəkildə "mənalı" hesab edərək cavab verir. İnsanlar bunun, bəlkə də, insani musiqinin mənbələrindən biri olduğunu iddia ediblər.

Mən "insani musiqi" deyirəm. Onda başqa bir sual ortaya çıxır: musiqi sadəcə insani fəaliyyətdir, yoxsa başqa heyvanlarda da var?

Biz insanabənzər meymunun bir növüyük və bütün insanabənzər meymunların və ümumilikdə, meymunların emosiyaları və xüsusi mənaları – sevinci, qorxunu, həyəcanı, təhlükəni ifadə etmək üçün geniş səs diapazonu var – haylamalar, zingiltilər, fit səsləri, çağırışlar və nəriltilər. Körpə danışığı kimi meymunların səsi də olduqca "musiqili" görünə bilər. Digər heyvanların səsi o qədər musiqili səslənir ki, biz onlara "mahnı" deyirik. Donqar balinalar müxtəlif "mövzulara" aid olan yüksək səs-küydən tutmuş dərin iniltilərə və zarımalara qədər çox müxtəlif səslər çıxarırlar və hər hansı bir "mahnı" iyirmi dəqiqə və ya daha çox davam edə bilər. Biz quşları "oxuyan" kimi təsvir edirik. Ən mürəkkəb quş nəğməsinin insan musiqisinə bənzəyən xüsusiyyətləri var, lakin nəğmə o qədər sürətlə ifa olunur ki, biz incəlikləri eşitmirik. Mahnı yavaşladılsa, balinalar kimi quşların da nəğmələrində notları təsadüfi deyil, mütəşəkkil şəkildə düzdüklərini eşitmək mümkündür.

İnsanabənzər meymunlar, balinalar və ya quşlar "musiqi" ifa edirlər? Əslində bu, "musiqi" anlayışını necə müəyyən etməyinizdən asılıdır, odur ki, bu, bəlkə də, yersiz sual deyil.

Balinaların və quşların mürəkkəb səsləri bir növ "dil" hesab edilə bilərmi? Bu da "dil"i necə təyin etmək seçiminizdən asılıdır. Bu suallara hələ cavabımız yoxdur. Bildiyimiz odur ki, bizim insani dildə danışa bilməmiz üçün insan beyni və boğazı lazımi səviyyədə inkişaf edib və bu, musiqinin inkişafı ilə paralel baş verib. Həqiqətən də, bizim həm dilimiz, həm də musiqimiz olduğuna görə haqqında yaza biləcəyimiz  "musiqi tarixi" var.

Ritm təkcə musiqinin deyil, həyatın əsas komponentlərindən biridir. Doğulan andan ölənə qədər bizi ritm əhatə edir. Ürəyimiz döyünür. Gəzdiyimiz zaman ayaqlarımız dördayaqlı heyvanın hərəkət ritmindən fərqli olaraq nizamlı ritmlə hərəkət edir. Axsamağın, tullanmağın və qaçmağın fərqli ritmləri var və atın ayaqları yeriyəndə, yortduqda, dördnala getdikdə və qaçdıqda da fərqli ritmə malik olur.

Çoxəsrlik işlər də xarakterik ritmlərinə görə musiqiyə ilham verib: qazmaq, avar çəkmək, kəndirlə çəkmək, qayaları çapmaq.

Sənaye inqilabı təbii ritmlərə əlavə edilən bir çox mexaniki ritmlər təqdim etdi. Ritm kəsiləndə və ya dəyişəndə, məsələn, dördnala çapılan at hasardan tullananda, kimsə qaçışa başlayanda və ya qaçışa fasilə verəndə biz bir anlıq təlaş, gözlənti, şaşqınlıq yaşayırıq. Bütün bu ritmlərdən musiqi və rəqs ritmləri yaranıb.

Bəzi təbii ritmik hallar daim dəyişir: havanın hərəkət etməsi, küləkdə budaqların yellənməsi, sahilə dalğalar çırpılması. Səssiz ritmlər də var: günəşin doğması, səmada səyahət etməsi (bizə elə görünür (gəlir) və axşam batması ilə günlərin təkrarlanan ritmləri var. Günlər getdikcə uzanaraq, sonra qısalaraq ilin ritmini yaradır. Doğuşdan böyüməyə və sonra enişə – ölümə qədər həyatın özü-

nün də ritmi var. Biz fiziki və psixoloji bir çox ritmik hallar yaşayırıq: nəyəsə nail olmaq üçün səy göstərmək (zehni və ya fiziki) və sonra rahatlamaq; xəstələnmək və sağalmaq; hamilə olmaq və doğmaq.

Beləliklə, həyatımız bizi musiqiyə ruhlandıran çoxlu ritm mənbələri ilə təmin edir. Dünyanın müxtəlif yerlərində ritmin musiqidə dominant element kimi çıxış etdiyi mədəniyyətlər var. Amma adətən melodiya – oxumaq və ya melodiyanı ifa etmək – və harmoniya da var. Bu ikisindən melodiya ən gözəçarpanıdır, lakin harmoniya əsasdır. Hətta kimsə öz-özünə, müşayiətsiz oxuyanda da onun not seçimində harmoniya var.

Bu qəribə görünə bilər, odur ki, nə demək istədiyimi izah edim. Hər kəs "harmoniya"nın mənasını müəyyən səviyyədə anlayır: biz "harmoniya içində yaşayan" ailədən danışırıq. Bu, sadəcə bir metaforadır, lakin o, musiqi harmoniyasına imkan yaradan təbiət hadisəsindən törəyir.

Əgər siz nəfəs alətində çalmısınızsa, sadəcə üfürməklə notu dəyişdirə biləcəyinizi bilirsiniz. Alətdən asılı olaraq, daha güclü üfürsəniz və ya qamış dilçəyi daha möhkəm sıxsanız və ya dodaqlarınızın formasını uyğunlaşdırsanız, daha yüksək nota çatacaqsınız və bunu daha da gücləndirsəniz, ondan da (daha) yüksək nota qalxacaqsınız. Bunun səbəbi alətin içindəki hava borusunun müxtəlif şəkildə vibrasiya edə bilməsidir – ümumilikdə, iki yarım uzunluğa bölünür, üçə bölünür, dördə bölünür və s. Boruya nə qədər çox enerji qoysanız, hava titrəyərkən bir o qədər çox hissəyə bölünəcəkdir. O, ikiyə bölünəndə iki dəfə, üçə bölünəndə üç dəfə və s. sürətlə titrəyərək daha yüksək və ondan da yüksək not yaradır. Eyni şeyi skripka, gitara və ya arfa simləri ilə də edə bilərsiniz. Simə yarıya qədər və ya onun üçdə birinə və ya dörddə birinə toxunun, onda titrəmələr daha qısa hissələrə bölünür və siz